# Təhsilə qayğı ölkənin gələcəyinə olan qayğıdır

**_Bu il dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Quba rayonuna səfər çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə tanış olublar._**



Qeyd etmək istərdim ki, Birinci Nügədi Qubanın ən böyük və yaraşıqlı kəndlərindən biridir. Mən bu kəndin seçicilərinin də daxil olduğu, 53 saylı Quba-Qusar seçki dairəsindən Milli Məclisə deputat seçilmişəm və buna görə də bu kəndin əməksevər, torpağa bağlı sakinlərinin son illər ərzindəki uğurları, eyni zamanda, qayğı və problemləri ilə yaxından tanışam.

Birinici Nügədi kənd sakinləri ilə görüşlərim zamanı onların cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyilə ölkə regionlarının, eləcə də Quba rayonunun davamlı inkişafı ilə bağlı görülən işlərdən tam razı qaldıqlarının dəfələrlə şahidi olmuşam.

Həqiqətən, dövlət başçısının müdrik siyasəti sayəsində son illər rayonda bir çox mühüm iqtisadi, sosial, humanitar layihələr uğurla icra olunmuşdur. Qubada bir sıra mühüm infrastuktur layihələri həyata keçirilmişdir. Nəticədə, rayonun digər yaşayış məntəqələrində olduğu kimi, Birinci Nügədi kəndində də əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təchizatı nəzərəçarpan dərəcədə yaxşılaşdırılmışdır.

Lakin, Birinci Nügədi kəndindəki 1 nömrəli tam orta məktəbin əvvəlki binası 1971-ci ildə inşa olunmuşdu və son illər tam yararsız vəziyyətdə idi. İndi isə şagirdlər Heydər Əliyev Fondu tərəfindən inşa olunmuş, hər cür şəraiti olan, olduqca gözəl yeni məktəbdə təhsillərini davam etdirəcəklər. Kənd sakinləri, valideyn və pedaqoqlar hörmətli Mehriban xanım Əliyevaya bu yüksək diqqət və qayğıya görə dərin minnətdarlıq edirlər.



Hər bir ölkənin inkişafı, tərəqqisi, ilk növbədə təhsildən asılıdır. Əminəm ki, yüksək müasir standartlara cavab verən yeni məktəbin inşası keyfiyyətli və bərabərhüquqlu təhsil imkanının yaradılması deməkdir. Tam səmimiyyətlə sizi əmin edə bilərəm ki, bu kənddə inşa olunan yeni məktəbi dünyanın ən yüksək inkişaf etmiş ölkələrinin təhsil müəssisələri ilə müqayisə etmək olar.

Sevindirici haldır ki, Birinci Nügədi kənd orta məktəbin şagirdləri indiyədək müxtəlif fənn olimpiadalarında müvəffəqiyyət qazanıblar, məzunlar yüksək balla ali məktəblərə qəbul olublar. Təkcə son 4 ildə məktəbin 5 şagirdi 600-dən çox balla tələbə adını qazanıb.

Qeyd edək ki, müasir infrastruktur tədrisin keyfiyyətinə birbaşa müsbət təsir göstərən amillərdəndir. Bundan sonra Birinci Nügədi kənd 1 nömrəli tam orta məktəbin şagirdləri daha böyük uğurlar qazanacaqlar.

Burada bir məqamı da vurğulamaq istərdim. İstər Birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində Birinci Nügədi kəndindən olan çox sayda mərd, qeyrətli oğullar yağı düşmənlə ağır döyüşlərdə qəhrəmanlıq nümunələri göstəriblər. Onların arasında şəhid və qazilər də var.

Kənd sakinləri Azərbaycan dövləti tərəfindən şəhid ailələrinə və Qarabağ müharibəsi veteranlarına göstərilən yüksək diqqət və qayğıdan çox razıdırlar. Onlar əmindirlər ki, möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyilə xalqımız bundan sonra da bütün sahələrdə parlaq qələbələr qazanacaq.

***Anatoli RAFAİLOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2021.- 8 dekabr.- S.5.